# XUDAFƏRİN

"Xudafərin harayından qalan mən!.."



Qəzet 1932-ci ildən çıxır № 7-8 (6873-6874) 15 iyun 2023-cü il


# 15 İyun Milli Qurtuluş Günüdür

# 26 İyun - Azərbaycanın Silahlı Qüvvələr Günüdür

## Milli Qurtuluş Günü münasibətilə tədbir keçirilib



15 iyun 2023-cü il tarixdə Heydər Əliyev adına Mədəniyyət və İstrahət Parkında Milli Qurtuluş Günü münasibətilə tədbir keçirilib.

Tədbirdə Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov, rayonun Hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatlarının rəhbərləri, YAP fəalları və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Tədbirdən öncə Mədəniyyət və İstrahət Parkında Ümummilli Lider Heydər Əliyevin heykəli önünə gül-çiçək dəstələri qoyularaq əziz və unudulmaz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Cəbrayıl Rayon İcra Hakimiyyətinin Başçısı Kamal Həsənov Ulu Öndər Heydər Əliyevin xilaskarlıq missiyasından geniş söhbət açıb Ümummilli Liderin respublika rəhbərliyinə qayıdışından sonra ölkəmizin sürətli inkişaf yoluna qədəm qoyduğunu, müstəqil respublikamızın son illər əldə etdiyi uğurların birbaşa Heydər Əliyevin adı ilə bağlı olduğunu vurğulayıb.

Ulu Öndər Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından uğurla çıxara bilmiş, ölkənin gələcək inkişaf strategiyasını müəyyən etmiş və onun həyata keçirilməsi üçün mühüm addımlar atmışdır. Həyatının mənasını xalqına xidmət etməkdə görən Ümummilli Lider Heydər Əliyevin siyasi irsinin nəticəsidir ki, bu gün müstəqil və demokratik Azərbaycan dövləti yaşayır və hərtərəfli inkişaf edir.

Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Ümummilli Liderin siyasi kursunu layiqincə davam etdirir. Ulu Öndərin siyasətinin uğurla həyata keçirilməsi müstəqilliyimizi möhkəmləndirir, dövlətçiliyimizi qüdrətləndirir və beynəlxalq aləmdə Azərbaycan Respublikasının rolunu və nüfuzunu artırır.

Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi daim hörmətlə yad ediləcək, xalqımız onu heç zaman unutmayacaqdır.

## Dövlətçiliyimizin xilaskarı anıldı

**İyunun 13-də rayon İcra Hakimiyyətinin və YAP Cəbrayıl rayon Təşkilatının birgə təşkilatçılığı ilə rayon Mədəniyyət Evində "Heydər Əliyev İli" çərçivəsində 15 iyun - Milli Qurtuluş Günü münasibətilə "Milli dövlətçiliyimizin xilaskarı" mövzusunda tədbir keçirilib. Tədbirdə Cəbrayıl Rayon İcra Hakimiyyəti başçısının müavini Fəridə İbayeva, YAP Cəbrayıl rayon Təşkilatının sədr müavini Məhəmməd Əliyev, Mərkəzi Kitabxananın əməkdaşları, mədəniyyət işçiləri, YAP fəalları iştirak ediblər.**



Tədbir Ümummilli lider Heydər Əliyevin və Respublikamızın ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanıb.

Çıxış edənlər bildiriblər ki, Azərbaycan xalqının taleyində böyük əhəmiyyət daşıyan elə günlər var ki, həmin günlərdə onun gələcək həyatını müəyyən edən mühüm başlanğıcların əsası qoyulub. Belə günlərdən ən önəmlisi tariximizə qızıl hərflərlə yazılmış 15 İyun - Milli Qurtuluş Günüdür. Milli Qurtuluş Günü Azərbaycan xalqı üçün sadəcə təqvim bayramı deyil, böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik bir gündür. İyunun 15-i xalqımız üçün əsl qurtuluş tarixidir. Bu tarixi yaradan isə Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında, möhkəmlənməsində, inkişafında müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqına arxa, dayaq olan bir insan - Heydər Əliyevdir.

Çıxışlar zamanı həmçinin 15 iyun Milli Qurtuluş Gününün ölkəmizin və xalqımızın həyatındakı əhəmiyyətindən, memarı və qurucusu Ulu Öndər Heydər Əliyev olan müstəqil Azərbaycan dövlətinin keçdiyi şərəfli tarixdən ətraflı söhbət açılıb.

## Məktəblərimizdə Son zəng






Bu gün respublikamızın hər yerində olduğu kimi, Cəbrayıl rayonunun ümumtəhsil məktəblərində də "Son zəng" çalınıb. 2022/2023-cü tədris ilində Cəbrayıl rayonunun 41 ümumtəhsil məktəbindən 624 şagird XI sinfi bitirərək məzun adını alıb. IX sinfi bitirən şagirdlərin sayı isə 898 nəfərdir. Rayonun ümumtəhsil məktəblərində keçirilən tədbirlərdə Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov, rayon Təhsil Şöbəsinin müdiri Zamiq Qurbanov, hüquq-mühafizə orqanlarının rəhbərləri, aparatın əməkdaşları iştirak ediblər.

Son zəng tədbiri Dövlət Himninin səslənməsi, Ulu Öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərimizin xatirəsinin yad edilməsi ilə başlanıb.

Novruz Aslanov adına Cocuq Mərcanlı kənd tam orta məktəbində keçirilən tədbirdə çıxış edən Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov məzunları son zəng və 15 iyun Milli Qurtuluş günü münasibəti ilə təbrik edərək ən xoş arzularını bildirib. Rayon rəhbəri qeyd edib ki, bu il həm məzunlarımız üçün, həm də xalqımız üçün əlamətdar bir ildir. Belə ki, Azərbaycan xalqının Ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi tamam olur. Bu münasibətlə 2023-cü il Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən ölkəmizdə "Heydər Əliyev ili" elan olunub. Heydər Əliyevin 100 illik yubileyinin qeyd olunması Azərbaycan tarixində əlamətdar hadisədir. Siz də bu əlamətdar, tarixi hadisəyə şahidlik edirsiniz. Heydər Əliyev ilinin məzunları adlanırsınız. Biz inanırıq ki, bu il respublikamızın ümumtəhsil məktəblərini bitirən məzunlarımız Azərbaycan təhsilinin inkişafının əsasını qoyan Ulu Öndər Heydər Əliyev siyasətinin təntənəsi olaraq istər Respublikamızın, istərsə də dünyanın ən nüfuzlu ali təhsil müəssisələrində təhsillərini davam etdirəcəklər. Bu gün Azərbaycan Respublikasının Prezidenti, Möhtərəm İlham Əliyev cənablarının ölkədə elm və təhsilin problemlərini daim diqqət mərkəzində saxlaması, göstərdiyi qayğı, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən layihələr də Ulu öndərin təhsil siyasətinin uğurlu davamıdır. Ölkə başçısı təhsili dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi həmişə dəyərləndirib. Məhz onun nəticəsidir ki, Respublikamızda son illərdə məktəb tikintisi geniş vüsət alıb. Ölkəmizin ən ucqar bölgələrində belə yeni tipli məktəblərin tikilməsi, əsaslı təmiri, ən yüksək bal toplayan gənclərə Prezident təqaüdünün, istedadlı gənclərə fəxri təqaüdlərin verilməsi bunu bir daha sübut edir. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Rəşadətli Ordumuzun, vətənpərvər və qəhrəman oğullarımızın sayəsində işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa-quruculuq işləri, xüsusilə orta məktəblərin açılışı və tikintisi çox ürəkaçandır. Doğma Cəbrayılımızda akademik Mehdi Mehdizadə adına 960 şagird yerlik şəhər tam orta məktəbin tikintisinin aparılması da bizdə qürur yaradır. Bu gün torpaq uğrunda canından keçmiş həmin oğullar bu məktəblərdə formalaşıb, təlim-tərbiyə alıb, milli vətənpərvər ruhda yetişiblər.

Tədbir şagirdlərin hazırladığı maraqlı ədəbi-bədii kompozisiyalarla davam etdirilib.

On birincilərin inamlı çıxışları onların Vətənin layiqli övladları olacağına inamı daha da artırıb.

"Son zəng" çalındıqdan sonra "Bilik açarı"nı birincilərə təhvil verən məzunlar məktəbə əlvida deyiblər.

**"XUDAFƏRİN"**

# Fənn Olimpiadalarının qalibləri ilə görüş



15 iyun 2023-cü il tarixdə Rayon İcra Hakimiyyətinin akt zalında Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov Dünya və Respublika Fənn Olimpiadalarının qalibləri ilə görüşüb.

Tədbirdə İngiltərədə keçirilən onlayn riyaziyyat olimpiadasında qızıl, SASMO - Beynəlxalq Riyaziyyat Olimpiadasında isə bürünc medal qazanmış rayonun Milli Qəhrəman Kazım Məmmədov adına B.Mərcanlı kənd tam orta məktəbinin 8-ci sinif şagirdi Həsənzadə Fərid İsmayıl oğlu, Respublika Fənn Olimpiadalarında tarix fənni üzrə gümüş medal qazanmış 10 nömrəli tam orta məktəbin IX sinif şagirdi Abasquliyev Elvin Qurban oğlu, Tatar kənd tam orta məktəbin 10-cu sinif şagirdi Əliyeva Alimə Bayram qızı, bürünc medal qazanmış X.Rüstəmov adına Yuxarı Mərcanlı kənd tam orta məktəbin XI sinif şagirdi Fərhadov Əvəz Ramiz oğlu, kimya fənni üzrə bürünc medal qazanmış 10 nömrəli tam orta məktəbin IX sinif şagirdi İbrahimov Elcan Müslüm oğlu və Respublika fənn müsabiqələrində kimya fənni üzrə gümüş medal qazanmış X.Rüstəmov adına Y.Mərcanlı kənd tam orta məktəbin VII sinif şagirdi Quliyeva Jalə Aqil qızı, Cəbrayıl Təhsil sektorunun məsul əməkdaşları, fənn müəllimləri, məktəb direktorları iştirak ediblər.

Görüşdə rayon rəhbəri dünya və respublika olimpiadalarında öz bilik və istedadları ilə uğur qazanan məktəbliləri təbrik edib, onlara xoş arzularını bildirib. Ölkə Prezidenti cənab İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təhsilə göstərdiyi diqqət və qayğıdan danışaraq bütün bunların Azərbaycanın xoşbəxt gələcəyi naminə edildiyini diqqətə çatdırıb.

Sonra olimpiada qaliblərinə Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov tərəfindən Fəxri Fərmanlar təqdim olunub.

# Sumqayıtda səyyar görüş-qəbul keçirilib

**Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov növbəti səyyar görüş-qəbulu Sumqayıt şəhərində keçirib. Sumqayıt şəhəri, Metallurq küçəsi 10-da yerləşən Cəbrayıl rayon 4 saylı tam orta məktəbində keçirilən qəbulda aparatın məsul əməkdaşları, həmin ərazidə müvəqqəti məskunlaşan rayon sakinləri iştirak ediblər.**



Qəbulda çıxış edən rayon rəhbəri sakinlərin qəbulu və müraciətlərinə operativ baxılması üçün rahat və əlverişli şəraitin yaradılmasından, qaldırılan problemlərin həlli istiqamətində həyata keçirilən tədbirlərdən danışıb. Daha sonra son illərdə respublikamızın sosial-iqtisadi inkişafı, əhalini narahat edən problemlərin həlli istiqamətində görülən tədbirlər, əhalinin sosial rifah halının yaxşılaşdırılması istiqamətində ölkə rəhbərliyi tərəfindən həyata keçirilən sosial layihələr barədə sakinlərə məlumat verib.

Qəbula gələn sakinlər həm şəxsi, həm də ümumi problem və çətinliklərini səsləndiriblər. Onları narahat edən məsələlərlə bağlı verilən suallar ətraflı cavablandırılıb. Həlli mümkün məsələlərlə bağlı müvafiq tapşırıqlar verilib.

Rayon sakinləri əhalinin gündəlik qayğı və problemləri ilə yerindəcə maraqlanaraq, həlli istiqamətində görülən tədbirlərə görə Respublika Prezidenti cənab İlham Əliyevə və rayon rəhbərliyinə təşəkkürlərini bildiriblər.



# Xələflinin 70 illik yubileyi

**YAP Cəbrayıl rayon təşkilatı və Cəbrayıl rayon Ağsaqqallar Şurasının təşkilatçılığı ilə “KREDO” qəzetinin baş redaktoru şair-publisist, dövlətə və dövlətçiliyə hər zaman sadiq olmuş Əli Rza Zal oğlu Xələflinin 70 illik yubileyi münasibətilə tədbir keçirilmişdir.**





Tədbirdə YAP Cəbrayıl rayon təşkilatının sədri Arif Fərzəliyev, Cəbrayıl rayon Ağsaqqallar Şurasının sədri Vaqif Məhərrəmov, DİİXİHİ Cəbrayıl rayon Komitəsinin sədri Əli Kazımov, Azərbaycanın Əməkdar jurnalisti, şair Avdı Qoşqar və partiya fəalları iştirak etmişlər. Tədbirdə Ulu Öndər Heydər Əliyev və canlarını Azərbaycanın ərazi bütövlüyü yolunda qurban vermiş şəhidlərin əziz xatirəsi 1 dəqiqəlik sükutla yad edildi. Tədbiri YAP Cəbrayıl rayon təşkilatının sədri Arif Fərzəliyev giriş nitqi ilə açaraq, Əli Rza Xələflinin həyat və yaradıcılığından geniş danışdı və təbrik etdi.

Rayon Ağsaqqallar Şurasının sədri Vaqif Məhərrəmov Əli Rza Xələflini 70 illiyi münasibətilə təbrik etdi və ona uzun ömür, cansağlığı arzu etdi.

DİİXİHİ Cəbrayıl rayon Komitəsinin sədri Əli Kazımov yubilyarı təbrik edərək, bundan sonrakı həyatında da uğurlar arzu etdi. Azərbaycanın Əməkdar jurnalisti Avdı Qoşqar, YAP fəalları Bəxtiyar Əsədov, Mürvət Abdullayev, Abbas Abbaslı, Sahil Məmmədov, Vilayət Cabbarov və başqaları çıxışlarında Ə.Xələfliyə yaradıcılıq uğurları arzuladılar. Sonda YAP Cəbrayıl rayon təşkilatı və Cəbrayıl rayon Ağsaqqallar Şurası tərəfindən Əli Rza Zal oğlu Xələfliyə dəyərli hədiyyələr təqdim edildi.



# Müstəqillik Günü qeyd olunub

**Müstəqillik günü ilə bağlı rayonun idarə, müəssisə və təşkilatlarında silsilə tədbirlər keçirilib. Tədbirlərdə milli istiqlal tariximizin şərəfli səhifəsi olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranma tarixi, qısa vaxt ərzində həyata keçirdiyi islahatlar, ölkənin demokratikləşməsi və insan hüquqları sahəsində atılan addımlar, dövlətçiliyimizin möhkəmləndirilməsi, müstəqil ölkəmizin ən böyük uğurlarından olduğu qeyd olunub.**



Silsilə tədbirlərin davamı olaraq mayın 28-də Mədəniyyət və İstirahət parkında Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət olunaraq önünə əklil və gül dəstələri qoyulub, əziz xatirəsi dərin ehtiramla yad olunub.

Tədbirdə Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov, rayonun Hüquq-Mühafizə orqanları, idarə, müəssisə və təşkilatlarının rəhbərləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov zəngin dövlətçilik ənənələri olan Azərbaycan xalqının XX əsrin əvvəlində müsəlman Şərqində ilk demokratik respublika yaratmasının mühüm tarixi nailiyyət olduğunu qeyd edib. 23 ay fəaliyyət göstərən Azərbaycan Xalq Cümhuriyyətinin 1920-ci ildə endirilən üçrəngli bayrağının növbəti dəfə Ümummilli Lider Heydər Əliyev tərəfindən Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sessiyasında qaldırıldığını xatırladıb. Mövcud tarixi şəraitdə Cümhuriyyətin qurulması, yaradılan demokratik təsisatlar, Azərbaycan dilinin dövlət dili elan edilməsi, Milli Ordunun təşkil olunması, qadınlara seçki hüququnun verilməsi və s. istiqamətdə görülən işlər barədə məlumat verən icra başçısı Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 2018-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin respublikamızda dövlət səviyyəsində qeyd edildiyini vurğulayıb.



# *69 ilin ailəsi ilə görüş*



Mayın 15-də Beynəlxalq Ailə Günü münasibətilə Cəbrayıl rayonunun Xələfli kənd sakinləri, 69 il birgə nikahda olan Hümbətalıyevlər ailəsi ziyarət olunub.

Görüşdə Cəbrayıl Rayon İcra Hakimiyyəti başçısının müavini Fəridə İbayeva, aparatın məsul əməkdaşları iştirak ediblər.

Ailə başçısı Əli Hümbətalıyev qonaqlara keçdiyi həyat yolundan, ailə həyatından, əmək fəaliyyətindən, qazandığı uğurlardan danışıb. Daha sonra gələcək nəslə nümunə olan Hümbətalıyevlər ailəsi uzunömürlü nikahlarının sirlərini bölüşərək sağlam ailənin təməlinin qarşılıqlı hörmət, sevgi və səmimi münasibətlərə əsaslandığını qeyd ediblər. Ailə dəyərlərinin qorunub saxlanılmasının cəmiyyətin hər bir üzvünün müqəddəs borcu olmasını xüsusi vurğulayıblar.

XUDAFƏRİN
“Xudafərin harayından qalan mən!..”
№ 7-8 (6873-6874) 15 iyun 2023-cü il


# Əli Rza Xələfli ilə Biləsuvarda

**Şair - publisist, «Kredo» qəzetinin baş redaktoru Əli Rza Xələfli 70 illik yubileyi münasibətilə bir qrup Azərbaycan ziyalısı ilə birlikdə Biləsuvar rayonu ərazisində məskunlaşmış Cəbrayıl camaatı ilə görüş keçirdi. Görüş əvvəlcə rayon İcra Hakimiyyətinin inzibati binasında RİH-nin başçısı Kamal Həsənovun ziyalıları qəbul etmə mərasimi ilə başladı. Qonaqları qəbul edib salamlayan rayon rəhbəri bu görüşün vacibliyindən və əhəmiyyətliliyindən danışdı. Əlirza müəllimin təkcə rayon ictimaiyyəti üçün yox, respublika səviyyəsində də öz yaradıcılığı etibarilə böyük nüfuz sahibi kimi tanınmasından söhbət açdı. Şair, yazıçı-publisist kimi fəaliyyətinə ekskurs etdi.**




“Xalq qəzeti”nin baş redaktor müavini Tahir Aydınoğlu çıxış edib səmimi qəbul üçün Başçıya təşəkkürünü bildirdi və 70 illik yubileyi şərəfinə Ə.Xələflinin dövlət təltifinə təqdim olunması təklifini irəli sürdü.




Daha sonra tədbir 4 saylı qəsəbə klubunda geniş oxucu kütləsi ilə davam etdirildi. RİH-nin Humanitar məsələlər üzrə müavini Fəridə İbayeva görüş iştirakçılarını salamladı, qonaqlara xoşgəldin eləyib, ölkəmizdə cənab prezident İlham Əliyevin, birinci vitse-prezident Mehriban xanımın ədəbiyyat, sənət adamlarına həmişə yüksək qayğı göstərməsindən danışdı. Qarabağımızın artıq işğaldan azad olduğunu və növbəti görüşlərin, Ə.Xələflinin gələn yubileyinin doğulub-böyüdüyü Cəbrayıl torpağında keçirilməsini arzuladı. Sonda RİH-nin Fəxri Fərmanını yubilyara təqdim etdi.

Aparıcılıq üçün söz professor Seyfəddin Rzasoya verildi. Ə.Xələfli yaradıcılığına qısa ekskurs edən Seyfəddin müəllim məruzə üçün sözü professor Təyyar Salamloğluna verdi. Təyyar müəllim Ə.Xələflinin Azərbaycan ədəbiyyatında tutduğu yoldan-millilik xətti ilə inamla yol getməsindən danışdı. Qeyd etdi ki, onun yaradıcılığı keçmişdən gəlir, bu günümüzü ifadə edir. Gələcəyə ötürülür. 55 kitabı var. 30-dan çoxu publisistikadır. O, şairdir, nasirdir. Stixiyası, ruhu etibarilə şairdir. “Bir Xələfli var imiş” poeması oxuyanda bir şair ruhu bizi orada qarşılayır. O dərddən yazır, ədəbiyyatımızda milləti formalaşdırmaq, təşkilatlandırmaq missiyası var, bu məsuliyyəti öz üzərinə götürmək məsuliyyəti var. Dərddən boğulub, dərddən doğulan şeirlərində torpaqlarımızın azad olunacağına nikbin notlarla çıxış edən şair kimi bəhs edən T.Salamoğlu Ə.Xələflinin nəsri haqda da əhatəli danışdı. Göstərdi ki, Kamal Abdullanın ”Yarımçıq əlyazma”sından sonra Ə.Xələflinin ”Od” romanı tarixi keçmişimizlə bağlı ikinci romandır. Cəfər Cabbarlının ad yaradıcılığı, tapıntısı baxımından burada Oday, Suay və başqa adlar bənzərlik təşkil edir.

Məruzəçi ”Türkiyənin zəlzələ ağrıları” poemasında Türkiyədəki zəlzələ faciəsinin Azərbaycan xalqı üçün necə ağrılı olmasını ustalıqla əks olunmasından da danışdı və yubilyarın 100 illik yublieyini də beləcə birlikdə və doğma Cəbrayılda keçirməyi arzuladı.

Milli Məclisin üzvü Ceyhun Məmmədov Ə.Xələflinin yazılarında həsrət, nisgil, Azərbaycan yanğısı motivlərinin üstünlük təşkil etdiyindən söz açıb belə tədbirlərə çox ehtiyac olduğunu vurğuladı. Mənəvi dəyərlərimizin, milli ənənələrimizin təbliği yönündə Ə.Xələfli yaradıcılığının genişliyilə əks olunduğundan danışan millət vəkili onun publisist kimi ”Kredo” qəzetinin işığına Azərbaycanın dəyərli ziyalılarının yığışdığını da diqqətə çəkdi. Cəbrayıllı olmaq həm də böyük məsuliyyətdir, - deyən Ceyhun müəllim bu məsul yükü Ə.Xələflinin şərəflə daşıdığını qeyd edib, ona yaradıcılıq uğurları arzuladı.

“Azərbaycan” jurnalının məsul katibi Vüsal Nuru: - Onun qəribə xarakteri var, hər kəsi özünə yaxın buraxır, lakin son nəticədə həmin adamı könlündən içəri buraxıb-buraxmaması artıq başqa məsələdir. Yaradıcılığa gəlməyində Ə.Xələflinin köməyi olduğunu söyləyib axırda ona AYB-nin Fəxri diplomunu təqdim etdi.

Folklorşünas alim Qalib Sayılov: - İdrakın, təfəkkürün dəyişməz mülkiyyəti etnik yaddaşdır. Əlirza müəllim kimi dəyərli ziyalılardır, söz ağır yükdür. Söz adamı kimi sözlə qəlbləri fəth edən Ə.Xələfli könüllər fatehi kimi bizləri yığıb bura gətirib. Daşqın çay, sərt qayadır. Azərbaycan coğrafiyasıdır. Ədəb bulağın çağlasın həmişə. Xeyirli bərəkətli ömür diləyirəm, 70 yaşınızı təbrik edirəm, - dedi.

Professor, Məmməd İracoğlu çıxışında tanıdığı Cəbrayıl ziyalılarından Əşrəf Hüseynov, Mehdi Mehdizadə, A.Verdizadə, T.Hacıyev, Qəzənfər Kazımov, İsmayıl Kazımov və başqalarının adlarını sadalayıb, Ə.Xələfli yaradıcılığının üstünə gəldi. Azərbaycançılıq, türkçülük, müasirlik, birliyə çağırış motivlərinin üstünlük təşkil etdiyi çoxşaxəli yaradıcılığından danışdı, qəsidənin mədhiyyə formasında qələmə aldığı Ərdoğanla bağlı əsərdən geniş söhbət açdı. Əqllə hissiyyatın birgə vəhdət təşkil etdiyi yaradıcılığı haqda mülahizələrini bölüşdü.



Lənkəran Dövlət Universitetinin professoru Yadulla Ağazadə tədbir iştirakçılarına Lənkəran torpağından çoxlu salamlar gətirdiyini söylədi. Ə.Xələflini canlı klassik adlandırıb, onu H.Zərdabi, Mirzə Cəlil, Ə.Hüseynzadə ilə müqayisə etdi. ”Kredo” qəzetinə bütün Azərbaycandan dən gətirilib üyüdüldüyünü obrazlı şəkildə dilə gətirdi.

“Xudafərin” qəzetinin baş redaktor müavini, Qabaqcıl təhsil işçisi Hidayət Səfərli ”Kredo” qəzetini özü üçün bir məktəb hesab etdiyini dedi. Mətbuat fədaisi olan Ə.Xələflinin şair kimi yaradıcılığından da danışıb, vətənin taleyi üçün narahatlıq hisslərinin, yurd sevgisi, Araz ağrısı duyğularının xüsusi seçildiyini qeyd etdi. Haldan-hala, təbdən-təbə düşən şeirlərdə Qarabağ ağrısı, Təbriz dərdi, Türkiyə ağrı-acısı olduğunu - lakin inamı olan, ümidi olan şair olduğunu söylədi. Yaradıcılıq uğurları arzuladı.

Professor Bədirxan Əhmədli ”Azərbaycan ordusu” qəzetinin müxbiri kimi Cəbrayılda Ə.Xələfli ilə görüşüb tanış olmağından söz saldı. Bakıda ”Kredo” qəzetini çıxarmaqla klassik qəzetçilik məktəbini davam etdirməsindən danışdı. Qeyd etdi ki, Ə.Xələfli vətən ədəbiyyatı yaradır. Fransa yazıçısı O.Balzak qədər zəhmətsevərliklə yazıb-yaradır.

Bakı Slavyan Universitinin professoru Nizami Tağısoy: - Ə.Xələfliyə yaxınlaşanda adamda bir katarzis baş verir. Onun yaradıcılığında janr polifonikliyi var. “Türkiyənin zəlzələ ağrıları” əsərini mən rekviyem adlandırmışam, - deyərək daha sonra Ə.Xələflinin bədii yaradıcılığının və publisistik fəaliyyətinin spesifik cəhətlərindən danışıb, hər birini üslub baxımından ayrı-ayrı bəndlər şəklində xarakterizə etdi.

Fəlsəfə doktoru Tahir Aydınoğlu: - Başı çox bəlalar çəkmiş Cəbrayılın xoş günüdür bu gün. Hər kəsin sevgisi onun çəkisi qədərdir. Ə.Xələfli sevgisi əvvəl Cəbrayıl boyda, sonra Azərbaycan, türk dünyası və indi də bütün sivil dünya boydadır. Ə.Xələflinin “Kredo” qəzeti oxucular üçün əlçatan, sevilən qəzet oldu: - deyib, “Xalq qəzeti”nin baş redaktoru Əflatun Amaşovun, Mətbuat Şurasının sədri Rəşad Məcidin təbriklərini və “Təşəkkürnamə”sini təqdim etdi.

AYB-nin Mingəçevir bölməsinin sədri şair İsmayıl İmamzadə yubilyara həsr etdiyi şeiri oxuduqdan sonra professor Qüdrət Umudov Ə.Xələfli yaradıcılığını Qətran Təbrizi ilə müqayisə edib, onun Qarabağ xalçası kimi çoxçalarlı yaradıcılığı var dedi:

Ədəbiyyatşünas Rasim Nəbioğlu Ə.Xələflinin bədii yaradıcılığından söz açıb, “Kredo” qəzetinin ədəbiyyat tarixinə qızıl hərflərlə yazıldığını söylədi.

Tarix İnstitutunun əməkdaşları İlham Həsənov, Yaqut Əmirova Ə.Xələflini təbrik etdilər, onun bioloji ömrünün sosial ömrünün sərhədlərinə sığmadığını qeyd etdilər.

Yazıçı, alim Sadıq Qarayev çıxışında bildirdi ki, Əlirza müəllimlə bir qrup ziyalı Cəbrayıl camaatı ilə görüşə gəlmişik. O qədər səmimiyyət, istiqanlılıq gördüm ki, elə bil elə Şərurda, öz kəndimizdəyəm. Bu gün təkcə Ə.Xəbəflinin tədbiri yox, həm də Azərbaycan ziyalısının tədbiridir. Arzu edirəm ki, növbəti yubileyi doğma Cəbrayılda keçirdək.

Şair-bəstəkar Şamil Əhmədli: Ə.Xələfli təbiət hadisəsidir, - deyib təbriklərini çatdırdı. “Ədəbiyyat qəzeti”nin şöbə müdiri şair Sərvaz Hüseynoğlu: - Əlirza müəllimə baxanda gözün, əl verəndə əlin sevinər: - deyib təbriklərini çatdırdı.

İngilis dili müəllimi Əbülfət Alışov Əlirza müəllimi oxumaq, başa düşmək üçün həm də yaxşı savada malik olmaq lazımdır, - deyib təbriklərini çatdırdı.

Şairlərdən Mirzə Mirimli, Kamal Fərhadov, Əbülfəz Əhmədov, Musa Aslanxanlı təbriklərini şeirlə ifadə etdilər.

“Xatirə kitabı” redaksiyasının şöbə müdiri Nəzirməmməd Zöhrablı, şair Avdı Qoşqar, fəlsəfə doktoru Süleyman Alıyev, 5 saylı qəsəbədə bağça müdiri Sona Mehdiyeva, Azərbaycan dili - Ədəbiyyat müəllimi Zaur Vəliyev, deputat köməkçisi Rəşad Quliyev, bu sətirlərin müəllifi olan mən Şakir Əlifoğlu və başqaları çıxışlarımızda yubilyara cansağlığı, uğurlar arzuladıq.

Bundan başqa, tədbirdə rayon mədəniyyət evinin, musiqi məktəbinin kollektivi, məktəblilər müxtəlif kompozisiyalı Ə.Xələflinin sözlərinə bəstələdikləri musiqi nömrələri səsləndirdilər. Şeirlərini ifa etdilər, yaradıcılıq yolu ilə bağlı suallar verdilər.

Dörd saatadək keçən xoş ovqatlı tədbirin sonunda yubilyar çıxış etdi, tədbir iştirakçılarına, çıxışçılara, rayon İcra Hakimiyyətinin ünvanına yüksək səviyyədə təşkil edilən tədbirə görə minnətdarlıq hisslərini çatdırdı.

**Şakir ALBALIYEV**



“Xudafərin harayından qalan mən!..”
XUDAFƏRİN

# Pirəsəd, Hacı Qaraman, Künbəz -



Pirəsəd piri

**Mayın 10-da əmimoğlu Şahinin maşını ilə Bakıdan üzü Cəbrayıla tərəf yola düşdük. Bacım Ramilə, qardaşlarım Nağı və Fazil 30 ilə kimi həsrət qaldıqları doğma dədə-baba yurdumuza səbirsizliklə çatmağa tələsirdilər. Cocuq Mərcanlıya - Cəbrayıla xoş gəlmisiniz sözləri yazılmış lövhəyə çatanda maşından düşüb gözləri dolmuş halda xatirə şəkli çəkdirdilər. 30 illik tilsim qəhrəman oğullarımızın rəşadəti sayəsində sınmışdı. Artıq üzü Cəbrayıla doğru gedirik. 2016-cı ildə işğaldan azad olmuş Lələtəpə postunu onlara göstərirəm, necə deyirlər, yol bələdçiliyi edirəm.**

Böyük Mərcanlı, Mehdili, Şəybəy və başqa kəndlərin viran qalmış, xarabalığa çevrilmiş acınacaqlı mənzərəsini kənardan seyr edə-edə mənfur düşmənlərimizə lənətlər yağdırırıq. Mahmudlu stansiyasına yetişirik. Əslində nə Mahmudludan, nə də ki, adlarını çəkdiyim, ya çəkmədiyim kəndlərdən yaşayış adına, kənd adına əsər-əlamət qalmadığından, onları indiki halda kənd adı kimi yox, kənddən yadigar, nişanə qalmış toponimik adlar kimi adlandırmaq daha düzgün olardı. “Yel vurub, yengələr oynayan” bu yerlərdə baxdıqca ürəyimiz odlanır, gözümüz qan ağlayırdı.

Cəbrayıl şəhərinin girişindəki “Dostluq” bulağına gəldik, əl-üzümüzü yuyub, suyundan içdik. Cəbrayılın mərkəzinə sürdürdüm maşını. Avtovağzaldan əsər-əlamət yox idi. Cəbrayılın çinar kəhrizinə gəldik. Nə həminki əzəmətli çinar var idi, nə də ki, kəhriz. Əvvəldə dediyim kimi, sadəcə, toponimik ad, oronim qalmışdı onlardan ancaq. Adam əlindən qaynaşan Cəbrayılın rayon mərkəzi də indi adamsız idi. Tezcənə də çıxdıq buradan. Çox ləngimədik. Çünki adam cansıxan bir vəziyyətdə havalanmış kimi hiss edir özünü. Təsəvvürümüzdə qalan, yaşayan əvvəlki izdihamlı rayon mərkəzini bu cür sükut içində görmək, seyr etmək özü bir dəhşət, vahimə çökdürürdü qəlbimizə...

Rayon mərkəzindən çıxıb Ağtəpə, Daş Veysəlli, Minbaşılı, Sədili kəndlərini keçirik. Üzü Hovusluya, Pirəsədə, Yavsılıya, Zeyvədüşənə... doğru istiqamət götürürük. Bizə yaradılan bu cür imkana görə Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyevə və əməkdaşlarına ayrıca təşəkkürlərimizi çatdırırıq.

Hovuslunu keçib qədim və başıbəlalı tarixi olan Pirəsəd kəndinə doğru yön alırıq. Dədə-baba torpağımız, yurdumuz olan Pirəsəd kəndində eyni adda iki bir-birinin bənzəri olan Pirəsəd piri var. Aralarında 100-150 metrlik bir məsafə olan bu ziyarətgahların ətrafında da kənd sakinlərinin qəbiristanlığı olub. O qədər qədim qəbiristanlıqdır ki, hətta yüzlərlə qəbir itib, torpağın alt qatında qalıb. Əvvəllər Hovuslu kəndindən Hacı Qaramana şose yolu bu pirlərin xeyli aşağısından - cənub tərəfindən keçirmiş. Sonralar Sovet hökuməti bu qədim qəbiristanlığın içindən, iki Pirəsəd pirinin ortasından təzə maşın yolu saldırdı. Beləliklə, həm köhnə qəbirlər məhv edildi, həm də bu iki Pirəsəd pirinin biri



şose yolunun altında, - yəni sol tərəfindən, o biri də üst tərəfində - yəni sağ cinahında qaldı. Ermənilərin torpaqlarımızı 30 ilə yaxın işğal altında saxladıqları vaxtda isə Pirəsəd kəndində salamat qalmış qəbirlərin bir çoxu da onların əli ilə dağıdıldı...

Maşınımız yolun sol tərəfinə düşmüş Pirəsəd pirinin yaxınlığına çatanda maşını dayandırdım. Yerə düşüb vətən torpağına qədəm basdıq. Kövrəldik. Şəkil çəkdirdik. Sonra bir qədər də irəli hərəkət etdik. Yolun sağ tərəfindəki Pirəsəd pirinə çatdıq. Pirin yaxınlığında - dağın döşündə rəhmətlik atam binə tikmiş, yurd salmışdı. Evin Hacı Qaraman tərəfə baxan divarı tam uçulmamışdı. Xaraba qalmış evimizə tərəf boylandıq, 30 il əvvəlki firavan çağlarımız, bəxtəvər atalı və həm də ata-baba yurdlu günlərimiz xəyalımızda gəzib-dolandı. Gözlərimiz doldu, kövrəldik. Neyləyə bilərdik, nəyə gücümüz çatardı ki?.. Əlacımız bir ona qaldı ki, Pirəsəd kəndinin torpağından götürdük - vətənin tutiya - müqəddəs torpağından... Bacım, qardaşlarım, əmim oğlu Şahin ilk dəfə idi ki, 30 ildən sonra doğma dədə-baba yurduna ayaq basırdılar. Mən də ikinci dəfə idi Pirəsədə gəlirdim. 2021-ci ilin noyabrında - il yarım bundan əvvəl olmuşdum burada. Amma elə buradanca da geri qayıtmışdım. Müqəddəs Hacı Qaraman ziyarətgahına elə Pirəsəddən tamaşa edib geri qayıtmışdım. Getməyə macal tapa bilməmişdim, baxmayaraq ki, heç elə uzaq məsafə də deyildi. Qismət indi yaranmışdı Hacı Qaramana gedib ziyarət etməyə. Maşına oturub Hacı Qaramana gəldik. Cəbrayıl, Qarabağ, Zəngəzur ellərinin dilinin ən əziz and yeri, inam-güvənc yeri olan Hacı Qaraman ocağının başına dədə-baba qaydasınca üç dəfə dolanıb-öpdük, ziyarət etdik. Bəzi radikal dindarlar pirin- - ocağın başına dolanıb - hərlənməyi, öpməyi daşa-qayaya və s. sitayiş etmək - bütpərəstlik və s. kimi dini görüşlərlə əlaqələndirirlər. Yox, belə düşünmürəm mən. Göydə Uca Allaha inamın, etiqadın olması şəksizdir. Ancaq yerdə də Allahın elçiləri, müqəddəs kimsənələr vardır ki, onları danmaq, inkar eləmək olmaz. Üstəlik, xristianların ibadət yeri olaraq kilsələri olduğu kimi, biz müsəlmanların da ibadət, namaz qılmaq üçün məscidləri vardır. Bəzən deyirlər ki, Cəbrayılda məscidlər olmayıb, ya da az olub. Bu irada cavab olaraq bildirim ki, Hacı Qaraman ocağının yaxınlığında Hacı Qaraman övladları sayılan Çələbilərin yaşamış olduğu qədim Çələbilər kəndi var. Çələbilər kəndində yaşı 300-400 ilə malik olan Çələbilər məscidi olub. Azərbaycanın ünlü şairi Molla Vəli Vidadi həmin Çələbilərdə - məscid-mədrəsədə dərs də deyib.

Bu, Cəbrayılda məscid abidə kompleksinin olmasına dair faktlardan biridir. Digərlərini sadalamadan keçirəm bu məsələ ilə bağlı ikinci bir amilə. Cəbrayıl camaatı məlumdur ki, dinsiz, yəni dinə, Allaha qarşı olmayıb heç vaxt.



Künbəz kəndi

Cəbrayıl torpağı müqəddəs torpaqdır və əhalisi də həmişə başda Allah olmaqla müqəddəsliyə tapınıb, ürəklərində Allaha, övliyalara məhəbbət odu gəzdirib. Cəbrayıl sözünün bir mənası Allahın dörd mələyindən birinin adıdırsa, bu özü də çox şey deyir. Cəbrayıl sözünün bir mənası da müqəddəs övliya-tarixi abidə (və şəxsiyyət) olan Cəbrayıl Atanın adındandır və deyilənə görə, Cəbrayıl camaatı elə Cəbrayıl Atanın törəmələridir. Belə olduğu təqdirdə Cəbrayıl torpağı Cəbrayıl Ata ziyarətgahının məskənidir və ümumiyyətlə, Cəbrayıl torpağı başda-başa ziyarətgahlarla, pirlərlə - ocaqlarla zəngindir. Deməli, burdan o məntiq də özünü göstərir ki, tarixən Cəbrayılda məscidlərin yerini tarixi çox qədimlərə gedən müqəddəs pirlər - ocaqlar tutub. Məscidlərin ekvivalenti, paraleli kimi ziyarətgahlar əhalinin düşüncəsində, dünyagörüşündə oturuşub - möhkəmlənib.

Başqa sözlə, camaat pirləri Allahın evi sayılan məscidlərlə eyni səviyyədə düşünüb-qəbul edib. İnsanlar bu təsəvvürdə olublar ki, elə bu ziyarətgahlar nə vaxtsa elə Allahın ”əli ilə tikilmiş” - müqəddəs kimsənələr tərəfindən inşa olunaraq onlara əmanət edilmiş Allahı zikr etmə, Allaha tapınma məkanlarıdır. Camaatın düşüncəsində Çələbilər ocağı - Hacı Qaraman da belə müqəddəs ocaq -məkanlardan biridir....

Bir də ki, Cəbrayıl torpağı müqəddəs məkandır. Müqəddəs yerdə isə çox saylı müqəddəs ziyarətgahların olması təbiidir. Eyni zamanda Cəbrayıllılar üçün Cəbrayıl torpağı həm də müqəddəs vətəndir. Vətən müqəddəsdirsə, onun torpağı da, daşı da, ağacı da müqəddəsdir (müqəddəs ziyarətgahdır). Əslinə qalsa, Cəbrayılın hər qarışında müqəddəs pirlərin olması elə həm də vətənin hər guşəsini pir-ocaq bilmək, müqəddəs tutmaqla həmahəng səsləşir. Bu baxımdan Cəbrayılda ziyarətgahları sitayiş edib öpmək həmçinin vətənin torpağını - daşını, hər qarışını müqəddəs hesab etmək kimi ülvi duyğuları əks etdirir.

Vətənin torpağını, daşını müqəddəs tutub öpərlər, əzizləyərlər, vətənin başına dönərlər, fırfıra kimi vətənin başına fırlanıb müqəddəs tutarlar. Deməli, Cəbrayıl torpağının ziyarətgahlar yurdu olması həm də vətənin hər guşəsinin əziz, müqəddəs hesab olunması anlamına gəlir.



Pirəsəd kəndi

Bəli, Hacı Qaramanın başına üç dəfə dolanmaqla, daşını öpməklə xalqımızın inam yeri olan pirini ziyarət etdik, həm də Hacı Qaramanın timsalında illərlə ayrı düşüb həsrətini çəkdiyimiz, qəribsədiyimiz vətənimizin başına dönüb, vətənimizin daşını-torpağını öpüb-əzizlədik.

Bir incə məqama da toxunum. Cəbrayılda “Hacı Qaraman haqqı” andı ilə yanaşı “Hacı Qaramanın Qara daşına and olsun” şəklində də and içmək ənənəsi var. Bu, nəyi bildirir? Hacı Qaraman ocağının girişində - qapı əvəzi giriş hissəsində bir yekə qara daş var. Ziyarət vaxtı adamlar həmin qara daşa əlini, üzünü söykəyib, öpər, dua edərlər. Hacı Qaraman ocağı Cəbrayıl, Qarabağ, Zəngəzur elləri üçün (imkanı - vəsaiti olmadığından Məkkəyə getməyənlər üçün) bir Məkkə, Mədinə ziyarəti kimi müqəddəs hesab olunub. Hacı Qaramandakı o qara daşın hardan, necə gətirilməsi haqda da səhih bilgi yoxdur. Bu daş Məkkədəki göydən düşən Məkkənin qara daşı kimi insanlar üçün müqəddəsdir və mən deyərdim ki, Hacı Qaramanın qara daşı Məkkədəki qara daşın bir parçası, bir timsalıdır. Ona görə də mən yuxarıda Allah evi olan məscidləri əbəs yerə paralel müqayisəyə gətirmədim Cəbrayıl torpağındakı ziyarətgahlarla. Cəbrayıldakı ziyarətgahlar, pirlər, ocaqlar mahiyyətcə məscidlərin funksiyasını yerinə yetirib əhalinin nəzərində.

30 ildə ilk dəfəydi gəlmişdim Hacı Qaramana. 30 il əvvəl ermənilərin əsiri kimi qollarım arxadan kürəyimə bağlı şəkildə ötüb keçmişdim Hacı Qaramandan. Mənfur düşmənlər son anlarımda da xahişimə baxmayıb, ziyarət etməyimə imkan verməmişdilər. Sofulu kəndində əsir götürüldüm, qollarımı arxadan bağlayıb, mal-heyvanın içinə qatıb, payi-piyada məni aparan ermənilərə müqavimət göstərir, onlarla der-der deyişib qollarımı açmalarını istəyirdim. Düzü deyim ki, ürəyimdə bir gizli

# Ziyarətgah kəndlərimiz...

ümidim də vardı ki, bəlkə heç bunlar erməni deyil, məni sınağa, bərkə-boşa çəkmək istəyən azərbaycanlıdırlar, bəlkə də mənimlə elə belə zarafat etmək istəyirlər. Sofulu kəndindən bir neçə kilometrlik yol olan Hacı Qaramana yetişənədək, içimdə belə bir gizli ümid duyğusu vardı. Elə ki, Hacı Qaramana çatdıq, onda özlüyümdə qəsdən bir jest etdim. Onlara üz tutub: - qoyun gedim piri ziyarət edim, - dedim. Onda məni təpiklə vurub ”nə ziyarət, sən nə danışırsan?” - dedilər. Elə ki, pirin yanından ötüb keçdik, onda içimdəki gizli ümidim də qırıldı, tam əmin oldum ki, ermənilərdir, kafirlərdir məni tutanlar, çünki nə məni qoydular gedəm ocağı ziyarət edəm, nə də özləri getdi...

Amma xalqımızın inancı baxımından düşündükdə, Hacı Qaraman camaatımızın inam, güvənc, ümid yeri idi. Mənimsə ürəyimdə Hacı Qaraman ocağının yaxınlığında olub-qalan ilğımvari ümidim qırılmışdı. Yaşamağa, sağ qalmağa zərrə qədər də gümanım qalmamışdı. Hər an öldürüləcəyimi gözümün altına alırdım. ”Filankəsi dəyirmanın gözündən ölü salsan, altından sağ çıxacaq” deyimimiz mənim həyatımda baş verdi. Ziyarətgahlar yurdu olan doğma torpağımızda, xüsusən də Hacı Qaramanda axı mənim yaşamaq ümidim ölə bilməzdi. Görünür, uca Tanrı göydən baxırmış, görünür, pir-ocaq sahibləri ruhlarının gözü ilə məni görürmüş. İlahidən qismətimdə yaşamaq var imiş. 2 gündən sonra erməni əsirliyindən qaçıb qurtula bilmək nəsibim oldu. Deməli, yaşamaq ümidim də mahiyyətcə ölmədi. Budur, 30 ildən sonra həminki yerdə, doğma ocaqdayam. Amma bu dəfə əllərim-qollarım bağlı deyildi, bu dəfə özüm də, torpaqlarımız da əsirlikdə deyildik. Bu dəfə ziyarətim qəbul olmuşdu. Hacı Qaramanın başına dolandım, öpdüm, ziyarət elədim, nəzir də qoydum. Şükür Allahın böyüklüyünə. Ali Baş Komandanımız cənab İlham Əliyevin yenilməz sərkərdəliyi və qəhrəman şəhid və qazilərimizin canı-qanı bahasına torpaqlarımız düşmən əsarətindən azad oldu.

Hacı Qaramanın torpağından da tutiya kimi götürüb, ordan da doğulduğumuz - böyüdüyümüz Künbəz-Dağtumas kəndinə doğru yola düşdük. Həyatımın 30 il geridə qalan gənclik illəri beynimdə cövlan eləyir, beləcə xəyallarımda ildırım sürətilə keçmişə qayıdır, olub-keçənləri düşünüb, halbahal olurdum. Getdiyimiz yol da, gördüyümüz hər bir təbiət mənzərəsi də uşaqlıq, gənclik illərimin tanışları - doğmaları kimi sanki dil açmaq istəyir, axı torpaq, daş-qaya, kol-kos olanda nolar, biz də siz doğma insanlar üçün qəribsəmişik deyirdi. Bu minvalla 30 ildən sonra rastlaşdığım ana yurdun dağı-dərəsi, yalı-yamacı, təpəsi, düzləri ilə salamlaşırdım.

Yollar palçıq olduğundan Sofulu kəndinə girə bilmədik. Ürəyimdə “ora getmək həyəcanını da Allah qoysa gələn dəfə gələndə yaşayaram”, - dedim. İnçə çayının üstündə, Dəli yarğan” deyilən yerdə salınmış körpüdən necə keçdiyimizi də heç bilmədim, fikir-xəyallar məni öz yelkəninə alıb haralara aparmışdı, heç özüm də bilmirdim.

Cədə yolu ilə çaxır zavodu olan yerə yaxınlaşırıq. Buradan Qəhrəman yurdu deyilən düzə tərəf sallanan yolayrıcında - üç yolda maşını saxlayıb, yerə düşürük. Mənfur düşmənlərimiz yerə-yurda elə bil süpürgə çəkmişdilər. Nə çaxır zavodunun min tonluq şərab çənlərindən əsər-əlamət qalmışdı, nə də ki, göz işlədikcə uzanan üzüm bağlarından bir nişanə qalmışdı. Beton dirəklər, məftillər, üzüm tingləri - heç elə bil belə şeylər olmayıbmış bu yerlərdə. Hara yığışdırılıb aparılmış, necə silinib-təmizlənmişdi, təsəvvür etmək olmurdu. Üzüm bağlarıyla, müxtəlif sort üzümlərilə məşhur olan Künbəz kəndi, Dağtumas ərazisi büsbütün tanınmaz hala düşmüşdü. Bizim 30 il əvvəl qoyub getdiyimiz kəndimizin təbii coğrafi mənzərəsi də dəyişmişdi. Kəndimizin çəmənliyini al-yaşıl otlarla bəzənmiş halda zənn etsəkdə, tamamilə əks mənzərənin şahidi olduq. Görünür cansız saydığımız torpaq da, dağ-daş da küsüb-inciyib bizlərdən. Bizlərdən ötrü qəribsəyib, dərd çəkib-xiffət çəkib deyə bar-bəhər də verə bilməyib. Doğma insanlarsız qəlbikönlü açılmayıb torpağın da, könlü


Hacı Qaraman

qubar-qubar olduğundan, matəm əlaməti olaraq al-yaşıl geyinib-bəzənməyib torpaq da. Necə ki, biz insanlar torpağımızdan - vətənimizdən aralı düşüb xiffət çəkdiyimiz kimi, yurd nisgilinə dözə bilmədiyimiz kimi, doğma torpaqlarımız - vətənimiz də bizdən ayrı olan illərdə hər il təbiətə qədəm basan yaza (sosial statusda Novruza) ürəkdən gülüb-fərəhlənmədiyindən, torpağın da bənizi-siması saralıb-solub. Necə deyərlər, biz vətənsiz olanda qəlbimiz açılmadığı kimi, ürəkdən deyib-gülmədiyimiz kimi, vətən torpağı da bizsiz olanda dərdə-qəmə mübtəla olub, sinəsində al-yaşıl xalılar sərib-şənlənməyib. Ona görə də torpağın siması bozumtul (pozulmuş), rəngi-mənzərəsi solğun-saralmış, pəjmürdə göründü gözlərimizə. Bir də elə bil uca-uca sıra dağlarımızın da əzəlki əzəməti qalmamışdı, yazıqlaşmış - balacalaşmış halda görünürdü gözümüzə. Bunun da sirri (səbəbi) yenə məlumdu. Dağlar da vətən sakinlərinin - doğmaları olan bizlərin ayrılığına dözə bilməyib, büzüşmüş, dərddən-qəmdən için-için əriyib aşağı çökmüşdü, belləri bükülüb qocaldığından balacalaşmışdı. Təpələr də həmçinin, dərddən-nisgildən yumağa dönüb kiçilmişdilər.


Künbəz kəndi

Künbəzin, ondan yuxarıda - şimalda dağlar qucağında qərar tutmuş Tumasın məlul-müşkül görkəmindən, lal baxışlarından dediyim halları açıq-aşkar müşahidə edirdim. Bizsiz qəribsəyən vətənimizin bu acı halına - acınacaqlı taleyinə baxıb kövrəlmişdim. Biz Allaha şükür ki, gəlmişik, inşallah, yaxın gələcəkdə gəlib yenə səndə binə qurub-yurd salacağıq, bizim doğma kəndimiz. Yenə də doğma elimiz-obamızla qayıdıb barlı-bəhrəli gülüstana, cənnətə döndərəcəyik səni, a doğma məkanım, a cənnət diyarım!

Cədə yolundan Qəhrəman yurdu tərəfə ayrılan üç yol ayrıcında yolun solunda da, sağında da yağışın yuyub üstünü açdığı 2 ədəd tank əleyhinə, 2 ədəd də piyada əleyhinə minaları gözümüzlə gördük. Mənfur düşmənlərimiz özləri torpaqlarımızdan cəhənnəm olub getsələr də, yenə də düşmənçiliklərini davam etdirmək məqsədilə bizə bu minalar vasitəsilə ölüm tələsi qurublar. Düşmənlərimizin özləri kimi istehsal elədikləri minalar da hiylə torudur.



Çaxır zavodu tərəfindən üzü yuxarı Künbəz kəndinə sarı istiqamət alırıq. Vaxtilə süd emalı məntəqəsi olduğundan el arasında sadəcə olaraq qısa şəkildə Emal adı ilə tanınan yeri keçib rəhmətlik Məhəmməd dayıgilin - Cabbar oğlu Məhəmmədin evinin tuşuna çatırıq. Sağ tərəfdə Başıkəsik künbəz abidə-ziyarətgahı, sol tərəfdə kolxozun mal-qara fermasının xarabalığı... gözdağlayıcı, ürəkağrıdıcı bir mənzərə ilə rastlaşırıq. Elə burada dədə-baba üsulu ilə yerə süfrə saldıq, özümüzlə gətirdiyimiz yer-yeməyi süfrəyə düzdük. Yerə əyləşib ölüsü düşmüş adamlar kədər içində süfrə başına yığışıb könülsüz halda çörək yedikləri - kimi biz də günorta yeməyimizi yeyirik. Axı biz kəndimizin - doğulduğumuz Künbəz - Dağtumas kəndinin aşağı ətəyindəydik. 30 ildir ki, kəndimizə ayaq basmırıq, bizi isə burada heç bir qarşılayan - filan yoxdur. Yuxarıda isə viran qalıb tanınmaz hala düşmüş evlərimizin xarabalığı bizə ağır sükut, dərin hüzn yaşadır. Süfrədən qalxıb, maşınları burada qoyub, piyada evimizin yaxınlığındakı Yal deyilən tərəfə gedirik. Necə deyərlər, bizdən küsmüş olan kəndimizin ayağına gedirik, kəndimizin ayağına düşüb bağışlanmağımızı istəyirik. Deyirik ki, yağı düşmən güclü çıxdı - arxalı çıxdı, biz səndən dönmədik, bizi səndən didərgin, ayrı saldılar kafirlər, ay kəndimiz, ay ocağımız, pirimiz!...

Bu 30 ildə ən çox yuxularımda gördüyüm Künbəz pirinin 100-150 metrliyində idim. Könlüm çox can atdı gedəm, yaxınlaşam, dizin-dizin sürünüb qucaqlayam, daşından öpəm. Ancaq yanımdakılar qoymadılar, Künbəzin minalardan təmizlənmədiyini, ora yaxınlaşmağın ölümlə çilingağac oynamaq kimi bir şey olduğunu dedilər. Tək olsaydım gedərdim, heç nəyə məhəl qoymazdım. İndi isə özbaşına deyildim, bir hadisə baş versə, qanqaraçılığı yaradardım yanımdakı doğmalarıma. Kənardan baxa-baxa qaldım, 1-2 dəqiqəlik telefonun yaddaşına ürək sözlərimi danışdım, şəkil çəkdirdik xatirə kimi. Çılpaq tökmə Yalın üstündə bir qaratikan kolu da bitmişdi bu 30 ildə. Bəlkə də bu qaratikan kəndimizin ona doğma olan sakinlərinin xiffətini çəkməkdən Yalın bağrına düşmüş bir qara xal idi, ya bir kor qara çiban idi ki, bizim gəlişimizi gözləyirmiş həsrətlə. Bir qədər də yuxarı gedib əmimgilin, Nabat xalagilin, bizim evlərin xarabalığına ürək ağrısı ilə tamaşa elədik.

Səs-küysüzlükdən, adamsızlıqdan darıxırdım, ölü kəndə çevrilmişdi kəndimiz. Bilmirəm, ölümü deyim, sağmı deyim kəndimizə, laylamı deyim, ağımı deyim kəndimizə?.. İçimdən bir yanıqlı cikkə çəkmək istədim, haraylamaq istədim yurd həsrətilə dünyadan köçənlərimizin ruhlarını; çağırmaq, dəli bir bağırtı salmaq istədim: ay dilinin əzbəri vətən kəlməsi olan dədəm, hardasan? Elə hey arzulayardın ki, gedib Dağtumas sözü yazılmış lövhədən - alaqapıdan keçsəydim, daha ahu-zarım qalmazdı deyərdin. İndi torpaqlarımız azaddır, niyə məzarından baş qaldırıb gəlmirsən, ay dədə? Yoxsa sözünə xilaf çıxdın, ay dədə? Axı sən sözünün ağası olan köhnə, qayım-qədim kişiydin! Ay dədə, oğlanların, qızın gəlib qapına, niyə gəlib bizi qarşılamırsan? Evinə, qapısına qonaq-qara gələndə əldən-ayaqdan gedən, yorğan-döşək yükündə yastıq, döşəkcə qoymayan, hamısını qonağının altına sərən, başının, qolunun - qoltuğunun altına düzən əmim, bəs sən hardasan? Niyə gəlib sonbeşik oğlunu - Şahini, istəkli qardaşının balalarını qarşılamırsan? Axı sən belə laqeyd olmamısan axı bizlərə. Sözündən-söhbətindən doymadığımız bibimiz - əmimin ömürgün yoldaşı, bəs sən hardasan? Ay Nabat xala, ay Nisə bacı, ay əziz qonşularım, ay Hüseyn dayı, Nazxanım xala, Fənar xala, bəs siz hardasınız? Məhlədə hamımızın sevimli nənəmiz olan Qızyetər nənəmiz, sən axı ipəyi nənəydin, sən axı ağbirçəksən, qanyatırdansan, bəlkə qonşular arasında bir umu-küsülük düşüb, gəl sən barışdır qonşuları, tökülüşüb hayıma gəslin hamısı.


Künbəz kəndi

*(Ardı səh. 6-da)*

# Pirəsəd, Hacı Qaraman, Künbəz - Ziyarətgah kəndlərimiz...



*(Əvvəli səh. 5-də)*

O tərəfdən Ceyran xalanı da çağır, bu tərəfdən Şükürov Məhəmməd dayını, Züleyxa xalanı, övladları Namiqi, Əbiş oğlu Qurbanı, Fatma xalanı, Cəbi dayını, Şamama xalanı, İsax dayını, Cahan xalanı, Vəli dayını, Güllü xalanı, övladları olan sinif yoldaşım Vüqarı... - qıyya çəkib çağırmaq istəyirəm. Axı ruhlar ölmürlər deyirlər. bəs niyə harayıma hay vermirlər?! Niyə? Soruşmursunuz ki, ay bala, ay Şakir, bu 30 ildə harda itib batmışdın.



Niyə demirsiniz ki, axı sən bu qədər soyuqqanlı deyildin, bu qədər vaxtda hardaydın? Başında nə qəza-qədər vardı? Axı sən balalarımıza dərs deyirdin, ədəb-kamal öyrədirdin? Mən də cavab verim ki, yuxularımda həmişə gəlib məktəbimizdə uşaqlarınıza dərs demişəm.

Yuxularımda görürdüm ki, Bakıyla Cəbrayılın arasında - kəndimizin arasında yollarda qalmışam. Gah Bakıya təhsil dalınca gedirəm, gah da qayıdıb kəndimizdə uşaqlara dərs deyirəm. Mən axı sizdən nəfəs alırdım, sizdən ruhlanırdım, ay əziz elim-obam, camaatım...

Gəlin yığışın başıma, bir övlad kimi hesabat verim sizlərə, ay doğmalarım, əzizlərim. Sizdən uzaq düşdüyüm bu 30 ildə papağımı günə havayı vermədim. Ali məktəbi bitirdim, amma sevincimi sizlərlə bölüşə bilmədim. Axı adam bir imtahandan yüksək qiymət alanda onun sevincinə bütün doğmaları qoşulur, yığışıb təbrik edir, şənlik keçirirlər. Daha sonra dissertasiya işimi yazıb tamamladım, alim adı aldım. Bu uğuruma da sizlərlə bir yerdə olub ürəkdən sevinə bilmədim. Axı adamı fərəhləndirən, ona qol-qanad verən, ruh verən onun doğma eli-obası, kəndi, camaatıdır...

Nə bilim, ta hansı uğurlarımdan söhbət açım sizlərə, ay elim, ay obam. Həə, bir də məni ittiham eləmək istədiniz ki, hardaydın bu vaxtacan, niyə bir səsin - ünün yox idi. Var idi səsim də, harayım da. Hamımızın - bütün kəndimizin də, rayunumuzun da səsinin-sözünün tribunası olan doğma "Xudafərin" qəzetimizdə 22 ildi ki, səs salıram, çıxış edirəm, haylayıram sizləri, ay mənim doğmalarım. Hətta o səsi - "Xudafərin"i özümlə Türkiyəyə - İqdıra, Qarsa, Ərzuruma, Sivasa, Ankaraya da aparmışam, İrana - Təbrizə, Səraba da aparmışam, çatdırmışam.



Harda olmuşamsa, hara getmişəmsə, özümlə aparmışam, özümlə gəzdirmişəm "Xudafərin" adlı səsimizin, harayımızın ifadəçisi olan doğma "Xudafərin"imizi. Hətta bizim kimi yerindən-yurdundan didərgin düşən "Xudafərin"imizi ilk dəfə Cocuq Mərcanlıya, daha sonra isə 2021-ci ilin 4 oktyabrında doğma Cəbrayıl şəhərimizin mərkəzinə mən gətirdim, qəzetimizi də doğma Cəbrayılımıza qovuşdurmaq missiyası mənə nəsib oldu. İndi də doğma kəndimizə gətirmişəm səsimizin - harayımızın əks-sədası olan qəzetimizi. İnanmırsınızsa gəlin yığışın yanıma, odey, Şahinin maşınındadı, müxtəlif dövrlərdə işıq üzü görən "Xudafərin"imizi alın, baxın, oxuyun, eşidin bu illərdəki səsimi - fəryadımı ki, necə sizlərdən ötrü ah-nalə qoparmışam, fəğan etmişəm... Ehh, bilirəm, sizin üçün məzardan baş qaldırıb, cismən yanıma gəlmək mümkünsüzdür, amma onu bilirəm ki, ruhlar həmişə oyaqdırlar, inanıram ki, ruhunuzun gözlərilə gəlib mənimlə görüşdünüz də, qəzetimizin harayını-səsini eşitdiniz də...

Ay elim-obam, çoxlu uğurlarımdan danışdım, söhbət açdım sizlərə. Amma həyatımda bir uğursuzluğum olub bu uzun müddətdə. Həyat üçün ən vacib olan bir məsələdə uğur qazana bilmədim. O uğuru sizsiz qazanmaq çətin gəldi mənə. Toy eləyə bilmədim - ailə qura bilmədim özümə. Axı toy eləmək insan həyatındakı xoşbəxtliyin ən yüksək həddidir. Mən necə sevinib toy edə bilərdim sizlərsiz - vətənsiz. Rəhmətlik atam həmişə deyərdi Şakirə güllü-çiçəkli may ayında toy çaldıracağam. İndi elə may ayıdır - 10 maydır. Bu gün mənim həyatımda həm də ən xoş, ən əziz, mübarək gündür. Ona görə ki, bu gün doğma kəndimdəyəm, sizinlə - sizin ruhlarınızla bir yerdəyəm. Ruh(lar)dan gələn, ürəkdən edilən dua(lar) tanrı dərgahında eşidilər. Duaçı olsanız, yəqin mən də subaylıq tilsimini sındıraram. Axı mənim kəndim həm də müqəddəs məkandır. Yanımızda Künbəz piri, başımızın üstündə doğma Dağtumasımın adı ilə bağlı uca, müqəddəs Tumas Ata ocağı... Tumas Atanın (Tumas dağının) adı ilə rəsmi olaraq Dağtumas kəndi adlandığı kimi, Künbəz abidə-ziyarətgahının adı ilə də qeyri-rəsmi şəkildə olsa da, dildə-ağızda, el arasında Dağtumasın bir ayrılmaz hissəsi olaraq Künbəz kəndi kimi tanınıb-adlandırılır. Gördüyümüz kimi, kəndlərimiz(in adları) müqəddəs ziyarətgahlarla təmsil olunduğu kimi, özləri də, adları da ziyarətgah timsallı müqəddəs vətənimizdir. Ona görə də bu ulu, müqəddəs məkanda niyyətlər hasil olar, diləklər yerinə yetər, inşallah! İnşallah, tezliklə gəlib səndə yenidən məskən salıb, yaşayarıq, doğma kəndim, - deyib, hələliksə Künbəz kəndinin tutiya timsallı torpağından bir xışma götürüb, üzü Bakıya tərəf qayıtmaq istəyirdik. Ürəyimdən giziltili bir duyğu gəlib keçdi ki, bəs indi səni kimə tapşırıb gedim, ay doğma kəndim?.. Ürəyimdən keçirdiyim bu təlaş uca Allaha agah oldu, bu məqamda bir maşın mənə tərəf yaxınlaşıb dayandı. İçindən zabit geyimli bir gənc mənə salam verdi. Tanımışdı məni. Rəhmətlik Şərbətalı müəllimin nəvəsi idi. Mayor Şıxəliyev Səfiyar Əliyar oğlu idi. 44 günlük Vətən müharibəsində doğma kəndimizin alınmasında şücaət göstərmişdi. "Bir dəfə səninlə söhbətləşib qəzetimizdə yazaram" - dedim, eloğlu, vətən oğlu. Kəndimizin işğalçılardan azad olunmasında qəhrəmanlıqlar göstərmiş hərbçi oğluna vətən torpağını əmanət etdik. İndi rahat oldum ürəyimdə. O, üzü Tumas dağına tərəf yollandı, biz isə geriyə - Bakıya doğru qayıtmağın binasını qoyduq. Hacı Qaramanı, Pirəsədi, Hovuslunu, Minbaşılını... keçib Beyləqan torpağına çatırıq. Qəhrəmanlı qəsəbəsinə gedib Şuşanın alınması uğrunda qəhrəmancasına şəhid olmuş Tural Ədil oğlu Bayramlının valideynləri ilə görüşürük. Buradan da Beyləqanın Günəşli qəsəbəsinə doğru yön alırıq. Rəhmətlik Yəhya Çələbinin, Həcər Çələbinin, Tağı Çələbinin uyuduğu qəbiristanlıqda vətən həsrəti ilə dünyasını dəyişmiş atamın məzarını ziyarət edirik. Atamın məzarı üstünə Pirəsəddən, Hacı Qaramandan, Künbəzdən götürdüyümüz vətən torpağını səpirik; səni vətən torpağına aparmaq nəsib olmadı, vətən torpağını sənə - sənin məzarına gətirməyi heç olmazsa bacardıq, ay ata. Rahat uyu, ruhun sevinsin ki, torpaqlarımız yağı düşməndən azad edilib. Pirəsəd, Hacı Qaraman, Künbəz (Dağtumas) - müqəddəs ziyarətgahlar məskəni olan kəndlərimizin torpağı məzarına qovuşdu , ay dədə. Sənin də, vətən həsrətilə dünyadan köçənlərimizin də ruhları şad olsun. Tanrı ordumuzu qorusun, xalqımıza bəxtəvər gələcək nəsib eləsin!

**Şakir ALBALIYEV**

# Qiyamət gününün şəhidi




**1992-ci ilin 28 iyununda Cəbrayıl rayonunun Sur kəndində gedən qanlı-qadalı atışma səslərinin dağlarda-daşlarda dəhşətli əks-səda qoparmasını eşidənlər elə bil ki, qiyamət gününün gəldiyini görürdülər. Qiyamət qopmuşdu sanki. İsrafil sur düdüyünü çalırdı. Surda Vətən, Cəbrayıl məhşər ayağına çəkilirdi, düşmənlərimizin üstümüzə haqsız-haqsız hücum çəkməsi ilə, yersiz ərazi iddiaları ilə. Haqq-ədalət məhşər ayağına çəkilirdi.**



Bu məhşər günündə sinəsini qabağa verib, sorğu-sualsız özlərini vətənimizin ərazi bütövlüyü uğrunda, haqqın-ədalətin zəfər çalması uğrunda fəda edirdi vətən oğulları. Qiyamət günü çəkilən haqq-hesablar, qurulan haqq divanı əsgərlərimizi qorxutmur, əksinə, haqq işi uğrunda fədakarlıqla cihad aparmağa sövq edirdi. Həmin gün vətənimizin, işğalçılara qarşı mübariz bir ruhda müdafiəsinə qalxanlardan biri də Soltanlı kəndindən olan Quliyev Rufiz Telman oğlu idi. Cəmi üç ay idi ki, hərbi xidmətdə idi. Bir gənc kimi ürəyində çoxlu arzuları var idi. Lakin onun gəncliyi vətənimizin namərd ermənilərin fitvası ilə qanla çalxalandığı ağır zəmanəyə düşdü. Rufiz də ürəyində öncə vətəni qoruyaq, yağı həmləsindən müdafiə edək, sonra şəxsi həyatımız üçün nə lazımdırsa edərik deyə fikirləşirdi. Ona görə də 28 iyunda Surda qiyamət qopanda özünü qiyamətin qopardığı tufanın içinə vurdu, vətənimizi bu məhşər xətasından xilas etmək üçün əsgər kimi öz üzərinə düşən vətən borcunu ləyaqətlə yerinə yetirdi. Lakin həmin qanlı ölüm-dirim döyüşündə Rufizin özü də namərd yağı gülləsinə tuş gəldi, özünü vətən yolunda şəhid etdi. Özünü vətənimizin azadlığı uğrunda ideala qurban verdi. "Vətən yaşasın!" dedi. O döyüşdə Rufiz kimi qəhrəman, mətin övladlarımızın sayəsində düşmənin ağzı-burnu ovuldu. Rufiz isə cismani ömrünü vətənin ömrünə caladı. Onu Soltanlı kənd qəbiristanlığında dəfn etdilər. Lakin həmin qanlı döyüşlərdən bir il sonra - 23 avqustda yağı düşmən arxalandığı havadarlarının hesabına doğma yurdumuzu işğal etdi. Rufizin doğma rayonu da, doğma kəndi də, məzarı da düşmən əsarətində qaldı. 27 il çəkdi bu işğal müddəti. Mən bu müddətdə onunla bağlı bir neçə dəfə mətbuatda çıxış etmişdim. 2020-ci ilin 25 iyununda da "Qısa və şərəfli ömür yolu" adlı bir məqalə yazmışdım və həmin yazımı belə yekunlaşdırmışam: "Sur döyüşü gənc ailənin növrağını pozdu, dincliklərini yox etdi. 1993-cü ilin 23 avqustunda isə ailə bütün Cəbrayıllılar kimi ikinci bir müsibətlə üzləşdi. Məcburi köçkünlük faciəsi ilə. Hazırda Abşeronda - Xırdalan qəsəbəsində məskunlaşıblar. Rufizin qardaşları Hafiz də, Eldəniz də ailə həyatı qurublar. Hafizin oğluna Rufizin adını veriblər. 9-cu sinifdə oxuyur. İncəsənət gimnaziyasında təhsil alır. İncəsənət universitetinin aktyorluq fakültəsinə qəbul olmaq niyyətindədir. Arzusu çin olsun. Rufizin torpağı sanı Allah ömür versin, şəhid əmisinin arzularını əməllərində davam etdirib, Rufizin qısa və şərəfli ömür yolunu layiqincə yaşatsın.

Bir də Qarabağımız, işğal altında qalan torpaqlarımız işğaldan azad olsun, Rufizin vətəndə, Soltanlıda qərib qalan məzarını gedib ziyarət edə bilək, deyirəm. Axı Rufiz elə bu amal uğrunda - torpaqlarımızın azadlığı yolunda canını fəda etdi. Onda digər şəhidlərimiz kimi Rufizin də ruhu dinclik tapıb şad olacaqdır".

Həmin yazıdan bir neçə ay sonra - 3 ay sonra başlanan 2-ci Qarabağ müharibəsində qazandığımız Qələbə nəticəsində burdakı arzularım həyata keçdi. Torpaqlarımız işğaldan azad oldu, Rufizin də, bütün şəhidlərimizin də qisasları düşməndən alındı. Rufizin adını daşıyan qardaşı oğlu isə BDU-nun fəlsəfə fakültəsində 1-ci kursu bitirib, Rufizin yarımçıq qalmış arzularını davam etdirir. Rufizin anası Şahbaz xala deyir ki, 2021-ci ilin 27 iyununda həyat yoldaşımla, oğlanlarımla birgə gedib Rufizin məzarını ziyarət etdik.

Şükür olsun Allaha ki, Rufizin də, şəhidlərimizin də qanları yerdə qalmadı, onların 30 il əvvəl apardıqları haqq işi - torpaqlarımızın ərazi bütövlüyü uğrunda mübarizə hədər getmədi. Bu gün torpaqlarımız işğaldan azaddır, bu gün həm də bütün şəhidlərimiz - qiyamət gününün şahidi olan şəhidlərimizin də ruhu şaddır.

**Şakir ƏLİFOĞLU**

*İtkin şəhidlərimiz*



# Məzarı ürəklərdə qazılan şəhid

Zibeydə Məmmədbağı qızı Füzuli rayonunun Alxanlı kəndindən gəlin köçmüşdü Soltanlı kəndinə. Həyat yoldaşı Rza Əliyevlə şad-xürrəm, bəxtəvər ömür-gün sürürdülər. Allah-təala könül evindən də sevindirmişdi bu gənc ailəni. Oğul-qız sarıdan paylarını vermişdi. Hüseyn, Rübabə, Məharət, Elmar və Esmira. 3 oğul, 2 qız övladı bəxş etmişdi onlara. 1960-1970-ci illər bəlkə də dünyamızın ən xoş əmin-amanlıq vaxtları imiş. Müharibə yox, üzlərdə gülüş, ürəklərdə, qəlblərdə saflıq, halallıq, firavan yaşayış, gələcəyə nikbin baxış. Necə deyərlər, dünyanın tərəzisi düz çəkir, dünya öz ədalətli nizamı ilə gedirdi.

1980-ci illərin sonları, 1990-cı illərin əvvəlləri artıq dünya öz məhvərindən çıxmağa, insanların dinc yaşayışı pozulmağa başladı. Şər-zülm, haqsızlıq meydan sulamağa fürsət tapırdı. Bədnam, nankor qonşularımız ermənilər haqsız ərazi iddiaları ilə çıxış etməyə, torpaqlarımıza quduz it kimi diş qıcamağa başladı. ”Böyük Ermənistan” yaratmaq xülyasıyla Qarabağımızı, o cümlədən Cəbrayılımızı işğal eləmək niyyətini həyata keçirmək üçün silahlı hücumlar təşkil etdilər.

Vətənimizin bu dar ayağında xalqımızın qeyrətli övladları ayağa qalxıb silaha sarıldılar, düşmənə öz həddini aşmamaq üçün ölüm-dirim savaşına yollandılar. Belə bir deyim var: ”Gedən sadəcə ayaqlardırsa, onlar geri qayıdar... amma gedən könüldürsə, bax o heç bir zaman geri qayıtmaz”. Bəli, haqq işi uğrunda - torpaqlarımızın azadlığı yolunda o yol gedər-gəlməz yol olsa belə o yola sadəcə ayaqlarıyla deyil, canildən, könüldən ayaq basanlardan biri də Əliyev Elmar Rza oğlu idi. Rza kişiylə Zibeydə xanımın ailədə 4-cü övladı idi Elmar, ailənin-evinsə sonbeşik oğul övladı idi. Sonbeşik oğul xalq düşüncəsində ata ocağının varisi, davamçısı sayılıb. Elmar da bu müqəddəs missiyanın daşıyıcısı kimi doğulduğu Soltanlının, Cəbrayılın yağı işğalına məruz qalmaması üçün qanlı - qadalı cihada yollanmış, yurdumuza gəc baxanları pulemyotu ilə susdurmağı qət etmişdi.

1972-ci ilin 11 iyulunda Soltanlı kəndində dünyaya göz açan Elmar Rza oğlu Əliyev 1979-1989-cu illərdə kəndlərindəki orta məktəbdə təhsil aldı. Moskvada sovet ordusunda hərbi xidmətdə oldu. Həqiqi hərbi xidmətini bitirib doğma ev-eşiyinə gəlmişdi ki, hamı kimi o da öz həyatını yaşamağa başlasın. Özünün təbiətindəki həlimliyə, dincliyə uyğun şəkildə də dinc-firavan həyatına davam eləsin, evlənib ailə-uşaq sahibi olsun. Ancaq şeytanxislətli ermənilərin dünyamızı qatıb-qarışdırmaq istəyi Elmarın dincliyini pozdu. Könüllü olaraq Cəbrayıl rayon Hərbi Komissarlığına gəldi. Milli orduda xidmət etmək istədiyini bildirdi. Əvvəl Cəbrayıl şəhərində yerləşən alayın tərkibində xidmətə başladı. Sonra isə rayonumuzda strateji cəhətdən daha vacib olan bir bölgədə qulluğunu davam etdirməyə qərar verdi. Dağlar qoynunda qərar tutmuş Sirik kəndindəki batalyonda xidmətə davam etdi.

Başı göylərə bülənd olan uca Ziyarət dağının ətəyində, Tey dağında vətənin keşiyində əlində pulemyotu ilə ayıq-sayıq dayanıb, əlverişli coğrafi mövqedə olan düşmənlərimizin bəndini-bərəsini bağlayırdı Elmar Əliyev.

1993-cü ilin 11 aprelində Ziyarət dağı istiqamətində gedən Göygədik əməliyyatı adlı döyüşdə pulemyotu ilə dığalara qan udduran Elmar Rza oğlu Əliyev öz canını vətən yolunda fəda etdi. Taleyi məchulluğa düşdü. Müharibə elə bir real qanlı həyat səhnəsidir ki, orada ölüm-itim labüddür. Elmar da həmin qanlı döyüşdə itkin düşdü. Cismən torpağa gömülməyən itkin şəhidimizin məzarı ürəklərdə qazıldı, ruhu vətənimizin əngin səmalarına uçdu, ordan ana yurdumuzu qoruyan qaraçuxa kimi doğma torpaqlarımıza göz-qulaq olmağa başladı. Sağlığında cismi ilə düşmənə göz dağı olan Elmar itkin düşəndən sonra da şəhid kimi ruhu ilə vətənin səmasında gəzib-dolaşdı ki...

Elmarın böyük qardaşı Hüseynlə söhbət zamanı deyir ki, o vaxt Soltanlıdan Sirik kəndinə çox getdik-gəldik, necə deyərlər, yollarda zəlil olduq, ancaq onun öldü-qaldısından o vaxt bir xəbər tuta bilmədik. Çox sonralar bildik ki, elə o vaxt şəhid olubmuş, nəşini götürmək mümkün olmayıbmış...

Bəli, Elmarın itkin-şəhid düşməsindən təxminən 4 ay yarım sonra mənfur düşmənlərimiz doğma yurdumuzu işğal etdilər. Bax onda Elmar kimi itkin düşən şəhidlərimizin ruhları göy üzünə çəkildilər və ata-baba yurdunu tək qoymadılar ruhları ilə, qaibdən baxıb-görən nəzərləri ilə. Ata-anasının - yurd nisgili ilə dünyasını dəyişən valideynlərinin - sonbeşik oğul övladları kimi doğma dədə-baba yurduna, ev-eşiklərinə də ruhları ilə göz olub keşik çəkdilər. 27-28 ildə düşmən əsarətində olan torpaqlarımıza həyan oldular yurdda dünyasını dəyişən şəhidlərimizin, itkinlərimizin ruhları.

Qardaşı Hüseyn deyir ki, Elmar mələk kimi idi, təmiz, saf qəlbli. Heç vaxt bir sözümüzü iki eləməzdi, nə desən canla-başla yerinə yetirərdi. Mələk kimi gəldi-getdi bu dünyadan, xüsusi seçilmişlərdəndi elə bil. Hərdən ona deyirdim ki, icazə al gəl bir neçə günlük evə, dincəl. Deyərdi ki, bəs torpaqlarımızı kim qorusun. İtkin düşəndən bir gün qabaq evimizə gəlmişdi. Paltarlarını yuduq, sərdik ki, gecə qalsın, qurusun, sabah geyinib gedər yenə posta. Heç demə Elmar bizdən xəbərsiz paltarlarını ütüyə çəkib, qızdırıb, bir az quruladıb, əyninə geyinib gedibmiş. Biz sabah eşitdik ki, qanlı döyüş olub. Elə bildik ki, Elmar içəridədir, yatıb. Evə girdik ki, evdə nə gəzir, axşamdan çıxıb gedibmiş...

Elmar Rza oğlu Əliyev sağlığında düşmənə qan uddurub, vətənimizin keşiyində dayandığı kimi, şəhid olduqdan sonra da ruhuyla ana yurdumuzun, ata-baba ocağının keşiyində oldu. 2020-ci ildə torpaqlarımız işğaldan azad olunanda onun da ruhu şad oldu, yolumuzu gözləyən ruhunun gözü ilə sevinib-güldü. Qaibdən səsləndi ki, mən də burdayam, sizinləyəm!..

**ƏLİFOĞLU**

# Rabitəsizliyə düşən rabitəçi

**Soltanlı kəndindən olan Akif Nurullah oğlu Verdiyev qonşu Sarıcallı kəndindən Adilə Göyüş qızı ilə ailə həyatı quranda düzün düz vaxtları idi. Xoş niyyətlə qurulan və gələcəyə böyük arzularla baxan gənc ailəyə Allah-təala da xoş nəzərlərlə baxdı: Xaliq, Mais, Gülnarə və Malik. 3 oğul, 1 qız payı bəxş elədi uca yaradan onlara. Beləcə, bu xoş dövranda bəxtəvər həyat yaşayırdılar. Mənfur qonşularımızın bədnam əməlləri hamı kimi bu ailənin də xoş gününü-güzəranını pozdu.**



“Böyük Ermənistan” yaratmaq xülyasına düşən azğınlaşmış ermənilər torpaqlarımıza diş qıcamağa başlayanda düşmən çəpəri olan lay divar cüssəli igidlərimiz ayağa qalxıb silaha sarıldılar. Düşmənin aşını, suyunu vermək üçün qanlı-qadalı hərb meydanına atıldılar. Belə mərd vətən oğullarından biri də Mais idi.



Mais Akif oğlu Verdiyev 20 oktyabr 1969-cu ildə Soltanlı kəndində anadan olmuşdur. 1976-1986-cı illərdə kəndlərindəki orta məktəbdə təhsil almışdır.

Orta məktəbi bitirdikdən sonra 131 nömrəli Sarıcallı kənd texniki peşə məktəbində traktorçuluq ixtisasına yiyələnmişdi. 1987-ci ilin payızında Sovet ordusu sıralarına yollanmışdı. Qazaxıstanın Alma-Ata şəhərində iki il hərbi xidmət keçmişdi. Elə həmin xidmət dövründə də rabitəçilik kursunda oxumuşdu.



Sovet ordusundakı xidmətini başa vurduqdan sonra Mais dinc həyata başlamaq - ailə həyatı qurmaq və bacardığı peşənin dalınca getmək, özünə halal yolla dolanışıq, rahat gün-güzəran qurmaq qərarına gəlir. Belə də edir. O vaxt qızğın işlər gedən Araz Su Elektrik Stansiyasında işə düzəlir, öz qazandığı peşəsinə uyğun olaraq ekskavatorçu kimi əmək fəaliyyətinə başlayır. Bu minvalla işləyib həm evdə ata-anasına, həm də bacı-qardaşlarına həyan durmaq, onlara köməklik etmək istəyirdi, həm də gələcəkdə ailə qurub, özü üçün binəgüzərlik etməyi düşünürdü. Beləcə illər bir-birini əvəz elədikcə Mais də öz arzularına doğru yaxınlaşırdı. Ailə həyatı da qurmuşdu. İndən belə özünün şəxsi həyatı, evi-eşiyi üçün daha yaxşı, canla-başla işləməyi planlaşdırmışdı... Lakin namərd ermənilərin getdikcə azğınlaşması artıq onun səbir kasasını daşdırıb yerindən-yurdundan etməyə başladı. 1992-ci ilin sonlarında rayon hərbi komissarlığına gəldi, milli ordu sıralarında xidmətə başladı. Sovet ordusunda bitirdiyi rabitəçilik sənətini milli orduda davam etdirdi, rabitəçi kimi hərbi parolların dili ilə düşmənin strateji cəhətdən əhəmiyyətli mövqelərini xəbər verir, düşməni zərərsizləşdirmək üçün lazımi siqnalları əsgərlərimizə ötürürdü.

1993-cü ilin 11 aprelində Sirik kəndi yaxınlığındakı Göygədik istiqamətində gedən qızğın döyüşlər zamanı Mais Akif oğlu Verdiyevin taleyi də məchulluğa düşdü. Döyüş əməliyyatlarında ordumuza hərbi parolların dili ilə müəyyən strateji istinadgahlar verən, nəyin harada olması haqda dəqiq məlumatlar ötürən Mais Verdiyevin özü barədə isə həmin döyüşdə heç bir informasiya almaq mümkün olmadı. Həmin Göygədik əməliyyatında Maislə birgə onun döyüşçü yoldaşları həmkəndlisi Əliyev Elmar Rza oğlu və Əliyev Vahid Balaca oğlu da itkin düşdülər. İtkinlik də müharibənin zamansız ağrı-acılarından biridir. Odur ki, dünya etibarsızdır, ölüm-itim var deyirlər. Xalqımız əbəs yerə ”ölüm-itim” ifadəsini qoşa işlətmir. ”Ölmək” və “itmək” semantik baxımdan xüsusən də qanlı-qadalı döyüşlər zamanı bir-biri ilə eynilik təşkil edir. Bu mənada müharibədəki şəhidliyin bir adı da itkinlikdir - itkin düşməkdir. Düşmən düşmənliyi edir, insana ağır, sarsıdıcı, sağalmaz yaralar vurur. Bir müdrik deyim var: “Həyat bir cümlədir, nə qədər uzatsan da, sonda nöqtəsi qoyulacaq. Bacar qurduğun cümlə mənalı olsun.”

Mais kimi igid vətən övladları özlərinin nakam gənc ömürlərini qızıl hərflərlə dəyərli və mənalı bir cümləyə çevirdilər.

Maisin qardaşı Maliklə söhbət zamanı kədərqarışıq təəssüf hissi ilə dedi ki, döyüşə gedəndə həyat yoldaşı hamilə idi. Demişdi ki, qızım olsa, adını Nərgiz qoyun, oğlum olsa, özünüz bilərsiniz... Bir qızı oldu, amma çox heyif ki, körpə ikən - 4 aylıq olanda dünyasını dəyişdi.

Malik onu da dedi ki, ataları torpaqlarımız işğaldan azad olunandan sonra rəhmətə gedib. Anaları Adilə xanım isə onun ailəsi ilə bir yerdə Qobuda yaşayır. Deyir ki, anamız oğlunun ölümünü hələ də qəbul etmək istəmir. Hər il anamızı aparırıq Biləsuvardakı Şəhidlər abidə-kompleksinə, şəklinin yanına gül buketi qoyub bununla təskinlik tapırıq.

Malik bir xoş xəbəri də dedi ki, oğluna Maisin adını qoyub. İdman Akademiyasının 4-cü kursunda hərbi müəllim ixtisası üzrə oxuyur. Özü isə 14 nömrəli forma geyinib voleybol üzrə Milli komandamızda iştirak edir.

Bəli, şəhid Mais Akif oğlu Verdiyevin həyat yolunu qardaşı oğlu Mais davam etdirir, yarıda qalan arzularını da həyatda qazanacağı uğurları ilə yaşadacaqdır.

**Şakir ƏLİFOĞLU**

# Riyaziyyat gecəsi





Mayın 17 - də müstəqil Azərbaycan dövlətinin qurucusu, dahi siyasətçi və qüdrətli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar Saatlı rayonunun Nərimankənd kəndi ərazisində fəaliyyət göstərən Cəbrayıl rayon 2 saylı tam orta məktəbində "Riyaziyyat bütün elmlərin açarıdır" adlı riyaziyyat gecəsi keçirildi.

Tədbirdə məktəbin müəllimləri ilə yanaşı Cəbrayıl rayon Tatar kənd tam orta məktəbin və Saatlı rayon Mehman Ağayev adına orta məktəbin riyaziyyat müəllimləri və şagirdləri də iştirak etdilər .

Tədbir iştirakçılarını salamlayan Cəbrayıl rayon 2saylı tam orta məktəbin direktoru Emin Veysəlov şagirdlərin dünyagörüşünün, bilik və bacarıqlarının artırılmasında belə tədbirlərin əhəmiyyətini diqqətə çatdırıb, gecənin təşkilində əməyi olan hər kəsə təşəkkürünü bildirdi .

Təlim-tərbiyə işləri üzrə direktor müavini Həziyev Sevindik bu tipli tədbirlərin şagirdlərdə riyaziyyatı fənninə böyük maraq yaratdığını qeyd etdi.

Tədbirdə aşağıdakı komandalar iştirak edirdilər:

1. Cəbrayıl rayon Tatar kənd tam orta məktəbinin şagirdlərinin timsalında dahi Azərbaycan alimi Nəsrəddin Tusinin adını daşıyan - "Tusi" komandası;

2. Cəbrayıl rayon 2 saylı tam orta məktəbin şagirdlərinin timsalında həmyerlimiz, akademik Əşrəf Hüseynovun adını daşıyan - "Əşrəf" komandası;

3. Saatlı rayon Mehman Ağayev adına 2 saylı orta məktəbin şagirdlərinin timsalında Qədim Yunan alimi Pifaqorun adını daşıyan - "Pifaqor" komandası.

Şagirdlər riyaziyyata , məntiqə aid dünya şöhrətli alimlərin maraqlı kəlamlarını söyləyib , məntiqi məsələ və misallar həll etdilər. Şagirdlərin təqdim etdiyi tapmacalar böyük maraqla qarşılandı. Cəbrayıl rayonunun əməkdar müəllimi Sahib Bayramovun riyaziyyata aid şeirini gələcəyin riyaziyyat müəllimi olmağı hədəfləyən X sinif şagirdi Əhmədova Aysun səsləndirdi.

Rəqəmlərin dilindən şagirdlərin göstərdikləri "Mən olmalıyam rəhbər" adlı səhnəcik gecəyə xüsusi rəng qatdı. Şagirdlərin lövhədə gözü bağlı misallar həll etmələri hər kəsin marağına səbəb oldu.

Komandalar arasındakı yarışda "Əşrəf" komandası qalib gəldi .Tədbirdə qalib komandayla yanaşı fərqlənən şagirdlərə məktəb rəhbərliyi tərəfindən Fəxri Fərman və hədiyyələr təqdim edildi.

Məktəbin direktoru Emin Veysəlov sonda qeyd etdi ki, şagirdlərin intellektual səviyyəsinin yüksəldilməsi istiqamətində belə tədbirlər həmişə keçiriləcəkdir

**Sülhanə HƏSƏNOVA,**
*Cəbrayıl rayon 2 saylı tam orta məktəbin Azərbaycan dili və ədəbiyyatı müəllimi*

# 37 ildən sonra...



1986-cı ildə orta məktəbi bitirdik. O vaxtdan 37 il keçir. Sağ olsun sinif yoldaşımız Qənbəri. öz evində yığdı bizi bir yerə. 37 rəqəmi xalqımızın tarixində qırğın-repressiya dövrünü xatırladır. Sovet rejiminin 1937-ci il repressiya "maşını" ziyalılarımızı əlimizdən aldı. Bu gün bizim məzun olduğumuzun 37 ili tamam olması ərəfəsində bir yerə cəm olmağımızın da əslinə qalsa səbəbi sovet sisteminin başımıza açdığı amansızlıqların əks-sədasıdır. Deyərsiniz ki nə əlaqəsi? Sovet imperiyası ki yoxdur! Sovet imperiyasının süquta uğramasının hələ də ölkəmizdə fəsadlarını yaşayırıq. 1930-cu illərin ağır ağrılı-acılı müsibətlərini bizə yaşadan sovet quruluşu asanlıqla yaxamızdan əl çəkmədi. Müstəqilliyimizi əldə etməyimizlə barışmayan imperiya siyasəti bədnam və mənfur ermənilərin əli ilə torpaqlarımızın 20%-ni işğal etdirəndə, bizim cənnətməkan yerlərimizdən perik-didərgin düşməyimiz məhz geniş rakursdan yanaşdıqda, elə 1930-cu illər repressiyasının, 1948-ci illər deportasiyasının və s.b.k. müsibətlərimizin qisascıl şəkildə davamı idi. Rus imperiyası müstəqilliyimizi həzm edə bilmədiyindən, başımıza yerimizdən - yurdumuzdan məcburi köçkün düşmək faciəsi gətirildi. Nəticədə hərəmiz bir tərəfə düşüb diyarbadiyar səpələndik. Bəli, bu gün 37 il sonrakı görüşümüz 7 il də, 17 il də əvvəldə ola bilərdi. Lap 3 il sonra da - 40 ildən sonra



da ola bilərdi - əgər əvvəlki yubiley görüşlərimizi keçirmiş ola bilsəydik. Ömrə-günə, zamana, tarixin çərxi-gərdişinə etibarımız qalsaydı... biz dünyanı ki, belə qarışıq gördük, dedik yox ta, onsuz da çox gecikmişik belə bir görüşü təşkil etməkdə, məqamı-fürsəti, Qənbər Əzizovun bizə təşkil etdiyi, yaratdığı bu şəraiti əldən buraxmaq olmazdı.

Düzdür, mən bu görüşə müəyyən işlərim ucbatından xeyli gecikdim də. Ancaq sağ olsunlar, mənim yolumu səbrlə gözlədilər. Mən də üzrxahlıq edib, yumor hissi ilə "böyük adamları gözləyərlər daa, bəs bilmirdiniz?" - deyib könüllərini aldım sinif yoldaşlarımın.

37 il əvvələ qayıtdıq fikrən-xəyalən, bir az özlüyümüzdə uşaqlaşdıq da. Amma mən heç orta məktəb illərimdə də xarakterimə görə uşaqlıq eləyə bilməmişdim. İstədim indi bir az dəcəllik - uşaqlıq eləyəm, ötən illərin hayıfını çıxam. Deyəsən onu da bacarmadım. İstər-istəməz həyat, dünya, insanlar barədə folklorçu - etnoqraf kimi düşüncələrimi bölüşdüm. Deyəsən orta məktəbdə bir sinifdə oxuduğum uşaqlarla dərs dediyim şagirdlərimi qarışıq salmışdım. Amma mən hərdən orta məktəb yoldaşlarıma müəllimlərdən dərsə gəlməyəndə dərs də demişdim. Bu dərs də bəlkə o dərslərin davamı idi... Amma bu dərs həyat dərsi idi. Hamımızın keçdiyimiz həyat dərsi. Həyat hamımıza bu illərdə əməlli-başlı dərs keçdiyindən, hamımızın həyat, ailə, dünya haqqında kifayət qədər anlayışımız da vardı. Biz sadəcə bir-birimizlə könül söhbəti elədik. Axı könül söhbəti ürəkdən gəldiyindən, adama xoş gəlir. Hamımıza xoş gələn bir görüş keçirdik 37 ildən sonra. Və bu görüş özü də bir həyat dərsi idi. Həyat dərsləri isə heç vaxt unudulmur. Keçmiş zamanla bağlı belə bir fəlsəfi deyim var: "Heç vaxt keçmişin üçün təəssüf hissi keçirmə. Əksinə, keçmişini sənə dərs verən bir müəllim kimi bağrına bas". Hamımız 37 il əvvəlki keçmiş günlərimizin xatirəsi işığına yığışmışdıq. Ha deyəsən ki, keçmişimiz üçün təəssüflənmərik, ax-vayı şeydir, keçmiş günlərə təəssüflənmək, keçmiş üçün darıxmaq insanın təbiətindədir... Nostalji duyğular insanı daim təqib etmədədir. Nə isə... Unudulmaz görüşdə çox arzular - diləklər dilə gəldi. Onlardan biri də 3 ildən sonra məzun olduğumuzun 40-cı ildönümünü doğma məktəbimizdə qeyd eləmək oldu. Arzularımız həyata keçsin.

**Şakir ALBALIYEV**

## Elegiyalar

Nə hiylə işidi, nə də ağıldı,
Dünya başdan-başa şirin nağıldı.
Ömrü bu dünyada qala bilmişdim,
Fələk topa tutdu, qalam dağıldı.
***
Gəzdim bu dünyanı mən qarış-qarış,
Vətənin bir qarış yerin vermədi.
Çağırdım oğul, qız, yar, bacı, qardaş,
Hayıma yetməyə birin vermədi;
Namərd dünya mənə sirrin vermədi!
***
Dünya öz kefində, nəyinə lazım
Onda gözü qalan bir insan köçür.
Olma bu dünyadan razı, narazı;
Özü arşınlayıb bizləri ölçür,
Hər kəsin boyuna kəfənin biçir!
***
Bax dünya boyda qəmimə,
Gülmə dərviş görkəmimə.
Soruşma nəçiyəm, kiməm?
Mən də sizlərdən biriyəm,
Yaşıl əbalı Xizriyəm!
***
Qərib eldə ölüm vaxtsız gəldi hey,
Oğlumdan-qızımdan getdim nigaran;
Ömür-gün yoldaşım qaldı tək-tənha.
Siz Allah, ay bacım-qardaşım anam,
Ailəmin üstündə göz olun hər an!

**ALBALIYEV**

**Cəbrayıl RİH, YAP rayon təşkilatı və "Xudafərin" qəzeti Nuriyev Əli Məhəmməd oğlu və Məmmədova Fatma Kamran qızının**

vəfatlarından kədərləndiklərini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin!**

Baş redaktor:
**Şakir Əlif oğlu ALBALIYEV**

Qəzet Ədliyyə Nazirliyində qeydə alınıb.
**CİF 1209641**
**H/h:55233080000**
**kod: 200123**
**VÖEN: 9900003611**
**SWIFT kod: AIIBAZ2X**
**M/h: AZ37NABZ01350100000000001944**
**Benefisiarın hesabı: AZ27IIB410100C9443130139112**
**VÖEN: 8200035441**
**Ünvan: AZ 1073, Bakı şəh.,**
Mətbuat prospekti, 529-cu məhəllə
"Azərbaycan" nəşriyyatı.
**Telefon:** (051) 441-15-82

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

Materiallardakı faktların doğruluğuna müəlliflər cavabdehdir.

**Əlyazmalar geri qaytarılmır.**

Qəzet "Xudafərin" qəzetinin kompüter mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında çap edilib.
**albaliyevshakir@gmail.com**
**albaliyevshakir@rambler.ru**
**Sifariş №: 1543**
**Tiraj: 2000**